**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**İQTİSADİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**VÜQAR AĞAMUSA OĞLU İSMAYILOV**

# İSTEHSALIN ƏRAZİ VƏ SAHƏVİ İDARƏETMƏ QURULUŞUNUN TƏKMİLLƏŞDİRİLMƏSİ MƏSƏLƏLƏRİ (AQRAR SAHƏNIN MATERIALLARI ƏSASINDA)

İxtisas: 5312.01- “Sahə iqtisadiyyatı”

**İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI - 2013**

Dissertasiya işi Qafqaz Universitetində yerinə yetirilmişdir.

| | | |
|---|---|---|
| **Elmi rəhbər:** | i.e.d., prof. | **İ.H.ALIYEV** |
| **Rəsmi opponentlər:** | i.e.d., prof. | **F.Ə.Məmmədov** |
| | i.f.d., dos. | **İ.S.Rüstəmov** |

**Aparıcı təşkilat:** **Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu**

Müdafiə "21__" _iyun__2013-cü il saat "___" da Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu nəzdində fəaliyyət göstərən **B\FD.01.181** Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1143, Bakı şəhəri, H.Cavid prospekti 31, Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu, II mərtəbə.

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____" ____________ 2013-cü ildə göndərilmişdir.

**B\FD.01.181. Dissertasiya Şurasının**
**elmi katibi, i.f.d, dosent** **G.S.Hacıyeva**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Hazırda bütün dünya ölkələri aqrar istehsalın inkişafına xüsusi əhəmiyyət verməklə, bu sahənin birbaşa və dolayı subsidiyalaşdırılması, idarəetmə sisteminin təkmilləşdirilməsi istiqamətində mühüm addımlar atır. Bu mənada son illər Azərbaycanın aqrar sektorunda dövlət səviyyəsində ciddi addımlar atılaraq bu sahənin daha da inkişaf etdirilməsinə səy göstərilir.

Təbiidir ki, istehsal və idareətmə sistemində proporsionallığın təmin edilməsi idarəetmənin ən mühüm qanunlarından biridir. Ona görə də idarəetmənin mühüm vəzifələrindən biri onun ayrı-ayrı hissələrinin arası kəsilmədən bağlılığını təmin etməkdən ibarətdir.

İstehsal düzgün təşkil edilmədikdə idarəetmənin vəzifəsi müxtəlif istehsal və xidmət vahidlərində baş verən qeyri-mütənasibliklərin aradan qaldırılmasına yönəldilir. Belə hal operativ idarəetmə fəaliyyəti ilə məşğul olan işçilərin sayının artması ilə nəticələnir, bu isə istehsalın tənzimlənməsinə və perspektiv planların tərtibinə az fikir verilməsinə səbəb olur. Bəzən, təcrübədə əsas sahənin (pambıqçılıq təsərrüfatlarında pambığın, üzümçülük təsərrüfatlarında üzümün) inkişafına daha çox diqqət yetirildiyindən köməkçi və yardımçı sahələr yaddan çıxarılır. Uzun illər belə hal respublikamızda heyvandarlıq sahəsinin inkişafına münasibətdə özünü büruzə vermişdir. Ayrı-ayrı istehsal və xidmət sahələri arasında optimallığın və optimal mütənasibliyin gözlənilməsi təsərrüfatda idarəetmənin başlıca vəzifələrindən biridir.

Azərbaycan ənənəvi aqrar - sənaye ölkəsidir və əhalisinin demək olar ki, yarısı kənd yerlərində yaşayır. Onların əsas məşğuliyyətini isə kənd təsərrüfatı sahələri təşkil edir. Aqrar - sənaye ölkəsi kimi Azərbaycanda iqtisadiyyatın bu vacib sahəsi, onun formalaşması və inkişafı daim dövlətin diqqət mərkəzində olmuşdur. Aqrar istehsalın dövlət tərəfindən fəal tənzimlənməsi həmişə dövlətin aqrar siyasətinin tərkib hissəsi olmalıdır.

Aqrar sahədə əsas məqsəd mövcud ehtiyatlardan səmərəli istifadə etməklə, respublikanın daxili ehtiyaclarını ödəməklə, ölkənin ixrac potensialını daha da artırmaqdır. Bu məqsədlə aqrar sahədə dərin

struktur dəyişikliklərinin aparılması, ərzaq və strateji məhsullar istehsalının artırılması, onun emalının həyata keçirilməsi üçün əsaslı tədbirlər sisteminin işlənib həyata keçirilməsi labüddür. Bütün bunlar aqrar sahədə istehsalın ərazi və sahəvi idarəetmə sisteminin təkmilləşdirilməsini vacib bir ehtiyac olaraq qarşıya qoymaqdadır. Yəni, regionların təbii-iqlim, mövcud iqtisadi potensial şəraitinə uyğun olaraq müxtəlif sahələrin müvafiq ərazilərdə inkişaf etdirilməsi məqsədəuyğundur.

Təcrübədən aydın olur ki, Azərbaycanın iqtisadi regionları (rayonları) öz potensialı, təbii sərvətlərinin miqyası və növü, məşğulluq səviyyəsi, həmçinin aqrar sahənin inkişafı baxımından bir - birindən fərqlənir. Bunun bir çox səbəbləri vardır, başlıcası odur ki, məhsuldar qüvvələr regionlar arasında qeyri - bərabər paylanmışdır. Belə ki, iqtisadiyyatın və infrastruktur sahələrinin əsasən Bakı şəhərində cəmlənməsi, onun rayonlara nisbətən daha sürətlə inkişaf etməsi, rayonlarda sosial - iqtisadi vəziyyətin ağırlaşması və nəticə etibarilə, əhalinin regionlardan sürətlə Bakıya axınına səbəb olmuşdur.

Onu da bildirmək lazımdır ki, regionların və aqrar sahənin kompleks inkişafına yönəldilmiş təcrübəvi əhəmiyyətə malik olan proqram sənədi kimi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 11 fevral 2004-cü ildə və 14 aprel 2009-cu ildə imzaladığı "Azərbaycan Respublikası Regionların sosial - iqtisadi inkişafı Proqramı (2004 - 2008 və 2009 - 2013-cü illər)" nı hesab etmək olar. Proqramlarda, ölkədə aparılan regional - iqtisadi siyasətə xüsusi diqqət yetirilmiş, regional inkişafda kəskin fərqlərin aradan götürülməsi üçün təcili tədbirlər planının işlənib hazırlanması kimi vacib məqsədlər qarşıya qoyulmuşdur.

"Azərbaycan Respublikası regionlarının 2009 - 2013-cü illərdə sosial - iqtisadi inkişafı Dövlət Proqramı" nın əsas məqsədi ölkədə qeyri - neft sektorunun inkişafının sürətləndirilməsinə, iqtisadiyyatın diversifikasiyasına, tarazlı regional və davamlı sosial-iqtisadi inkişafa, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına nail olmaqdır.

Bununla yanaşı, 2013-cü il fevralın 12-də keçirilmiş regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfransda prezident İlham Əliyev ölkə

iqtisadiyyatının bütün sahələri ilə yanaşı aqrar istehsalın bundan sonrakı dövrdə inkişafı ilə bağlı bir sıra məsələlərə toxundu.

Dövlət başçısı ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində əkin dövriyyəsinin genişləndirilməsini, yeni texnikanın alınması, meliorasiya tədbirləri, iri fermer təsərrüfatlarının yaradılması prosesi, bölgələrdə aqrar potensialın gücləndirilməsi üçün ixtisaslaşmanın aparılması, aqrar istehsalın yerlərdə ərazi və sahəvi idarə edilməsinin düzgün təşkil edilməsi üçün regionlarda ixtisaslaşdırma prosesinin həyata keçirilməsi, aqrar sahədə İKT məsələlərinin həlli, fermerlərin elektron qeydiyyat sisteminin yaradılması məsələlərinə toxundu və yaxın vaxtlarda bu sahələrdə ciddi addımların atılmasını vəzifə kimi müəyyən etdi.

Bütün qeyd edilənlər dissertasiya mövzusunun tədqiqat obyekti kimi araşdırılmasını zəruri etmişdir. Məhz bu baxımdan tədqiqat mövzusu aktual olub müasir dövrün tələblərindən irəli gəlir.

**Tədqiqatın öyrənilmə səviyyəsi.** İstehsalın ərazi və sahəvi idarəetmə quruluşunun formalaşdırılması və onun düzgün tətbiqi müasir elmin qarşısında duran ən vacib məsələlərdən biridir. Ümumiyyətlə, aqrar istehsalın idarəetmə strukturu və onun formalaşdırılması uzun illər bir çox görkəmli alimlərin diqqət mərkəzində olmuşdur.

Azərbaycanın iqtisadçı alimlərindən A.A.Nadirov, Z.Ə. Səmədzadə, A. K. Ələsgərov Ş. M. Muradov, , Ə. X. Nuriyev, İ. H. Alıyev, İ. V. Əhmədov, V. M. Niftullayev, K. A. Şahbazov, R . Ə. Balayev, H. B. Allahverdiyev, S. S. Salahov, F. V. Abbasov, A. F. Musayev, V. T. Novruzov və başqaları da öz əsərlərində qeyd etdiyimiz problemlərin həllinə toxunmuşlar.

Qeyd edək ki, bu proses qloballaşan dünyada bazar iqtisadiyyatına qədəm qoymuş hər bir dövlət üçün çox əhəmiyyətlidir. Xarici ölkələrin iqtisadçı alimlərindən David Abler, Griffon Mişel, L.İ.Abalkin, E.F.Borisov, E.R.Qorbunov, Benedikte Hermelin, İ.Q.Uşaçev, D.M.Keyns, İ.Ansoff, V.A.Klyukaç, V.F.Zaxarov, N.N.Nekrasov və başqaları əsərlərində problemin tədqiqinə geniş yer vermişlər.

Lakin yaranmaqda olan yeni istehsal münasibətləri, kənd təsərrüfatında baş vermiş mövcud struktur irəliləyişləri, aqrar sahədə

qəbul edilən yeni qanunlar və onların tətbiqi sahəsində istehsalın inkişafı və bu kimi müsbət tendensiyalar baş verməkdədir. Bu proses isə aqrar sahəyə və onun idarəedilməsinə və strukturunun formalaşmasına yeni metodları zəruri etməkdədir. Dissertasiya işində bu problemə daha çox diqqət yetirilir, aqrar sahədə idarəetmə quruluşunun formalaşmasına ölkənin gələcək inkişafı nöqteyi – nəzərindən baxılır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi istehsalın ərazi və sahəvi strukturunun nəzəri əsaslarını tədqiq etmək əsasında mövcud vəziyyətinin təhlilini aparmaq və onun təkmilləşdirilməsinə dair təklif və tövsiyyələrin hazırlanmasından ibarətdir.

Tədqiqat zamanı aşağıdakı vəzifələr qarşıya qoyularaq öz həllini tapmışdır:

- İstehsalın ərazi və sahəvi idarə edilməsinin nəzəri-metodoloji əsaslarını öyrənmək;
-Azərbaycan Respublikasında aqrar istehsalın mövcud idarəetmə quruluşunun müasir vəziyyətini qiymətləndirmək;
- Ölkənin regional xüsusiyyətləri nəzərə alınmaqla aqrar sahədə dövlət tənzimlənməsinin önəmini müqayisəli təhlil etmək;
- Aqrar sahədə düzgün maarifləndirmə sisteminin həyata keçirilmə yollarını təhlil etmək;
- Müasir bazar tələblərinə uyğun istehsal texnologiyalarının tətbiqi və onlardan düzgün istifadəni təmin etmək;
- Aqrar istehsalın ərazi və sahəvi idarəetmə quruluşunun təkmilləşdirilməsi istiqamətlərini müəyyənləşdirmək.

**Tədqiqatın obyekti** kimi bütövlükdə Azərbaycan Respublikasının Aqrar Sənaye Kompleksinin idarəetmə mexanizmi götürülmüşdür. **Tədqiqatın predmetini** istehsalın ərazi və sahəvi idarəetmə quruluşunun təkmilləşdirilməsi məsələləri təşkil edir.

**Tədqiqatın nəzəri – metodoloji əsasları.** Tədqiqatın nəzəri və metodoloji əsasını dünyanın və ölkəmizin aparıcı iqtisadçı alimlərinin əsərləri, Azərbaycan Respublikası prezidentinin aqrar sahə ilə bağlı fərman və sərəncamları, Azərbaycan Respublikasının konstitusiyası, Azərbaycan Respublikası Milli Məclisinin aqrar sahənin inkişafı ilə əlaqədar qəbul etdiyi qərarlar təşkil edir.

**Tədqiqatın informasiya bazasını** Azərbaycan Respublikası Kənd Təsərrüfatının, Maliyyə və İqtisadi İnkişaf Nazirliklərinin, Dövlət Statistika Komitəsinin, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, BMT –nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının materialları və ayrı – ayrı özəl qurumların statistik hesabatları təşkil edir.

Dissertasiya işində statistik və müqayisəli təhlil, müqayisə, müşahidə, dinamika, ümumiləşdirmə və bir çox başqa üsullardan istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- aqrar sahədə istehsalın idarə etmə strukturu ilə bağlı nəzəri müddəalar ümumiləşdirilmişdir;
- aqrar istehsalın idarəetmə quruluşu təhlil edilmiş və qiymətləndirilmişdir;
- aqrar sahədə idarəetmənin sahə quruluşu, təşkilati quruluşu araşdırılmış, yeni struktur siyasətinin əsas istiqamətləri göstərilmişdir;
- istehsalın ərazi və sahəvi idarəetmə orqanlarının funksiyalarının təkmilləşdirilməsi yolları müəyyən edilmişdir;
- aqrar sahədə təsərrüfat mexanizmi ilə idarəetmə mexanizminin bir - birilə əlaqələndirilməsinin düzgün formada təşkil olunmasında maarifləndirmənin və təcrübəli kadrların hazırlanmasının əhəmiyyəti vurğulanmışdır;
- aqrar sahənin düzgün və səmərəli idarəedilməsində regionlarda informasiya-konsaltinq xidmətinin yaradılması ilə bağlı təklif və tövsiyyələr işlənilmişdir;
- aqrar istehsalın ərazi və sahəvi idarəetmə quruluşunun təkmilləşdirilməsi istiqamətləri müəyyənləşdirilmiş və müvafiq təklif və tövsiyyələr işlənmişdir.

**Tədqiqatın təcrübi əhəmiyyəti.** Tədqiqat prosesində əldə edilmiş nəticələr aqrar sahədə maarifləndirmə işində, eyni zamanda irəli sürülən təkliflər aqrar sahənin, xüsusilə də regional və sahəvi inkişafında və idarəolunmanın təşkilində istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası və nəticələrinin tətbiqi.** Tədqiqatın nəticələri Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 87 – ci il dönümünə həsr olunmuş "Gənc tədqiqatçıların ümumrespublika elmi konfransı"nda "Aqrar sahənin idarəedilməsində regional strukturun

əhəmiyyəti” mövzusunda məruzə edilmiş və məruzənin qısa məzmunu həmin konfransın materiallarında dərc olunmuşdur.(Bakı, Qafqaz universiteti, 06 – 07 may 2010 – cu il). İşdə əməmli təkliflər Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Ucar rayonu Ərazi Kənd təsərrüfatı idarəsində bəyənilmiş və tətbiqi barədə (22 yanvar 2012 – ci il, 19 saylı qərarla) rəy verilmişdir.

Tədqiqatın əsas məzmunu və nəticələri dərc olunmuş 6 məqalə və 2 tezisdə öz əksini tapmışdır.

**Tədqiqat işinin həcmi və quruluşu.** Dissertasiya giriş, 3 fəsil, nəticə və ədəbiyyat siyahısından ibarət olmaqla kompüter yazısı ilə 144 səhifə həcmindədir. Tədqiqat işində 8 sxem, 4 şəkil, 6 cədvəl və 161 adda ədəbiyyat siyahısından istifadə edilmişdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı və tədqiqat obyektinin seçilməsi əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri, obyekti və predmeti müəyyən edilir, işin elmi yeniliyi və praktiki əhəmiyyəti göstərilir.

Dissertasiyanın “**İstehsalın ərazi və sahəvi idarə edilməsinin nəzəri - metodoloji əsasları**” adlı birinci fəslində kənd təsərrüfatı iqtisadiyyatının mahiyyəti, funksiyaları, iqtisadiyyatın kompleks inkişafında rolu ətraflı göstərilmişdir. Bundan başqa istehsalın ərazi və sahəvi idarəedilməsi, onun mahiyyəti və iqtisadi inkişafda rolu, regional bazarın formalaşması, regionun inkişafında xarici amillərin rolu, regiona qoyulan investisiyaların həcmi, strukturu və onlardan istifadə səviyyələri göstərilmişdir.

Aqrar sahədə idarəetmə mexanizminin ifadə etdiyi məqsəd bu sistemdə fəaliyyəti optimallaşdırmaq, daha az səy və məsrəflə mümkün olan daha çox iqtisadi nəticələrə nail olmaqla əhalinin ərzaq məhsullarına olan tələbatını ödəməkdən ibarətdir. Sosial baxımdan isə işsizliyi minimuma çatdırmağa, kasıbçılığı aradan qaldırmağa kömək göstərməkdir.

Bildiyimiz kimi digər sahələrdən fərqli olaraq kənd təsərrüfatının özünəməxsus xüsusiyyətləri var. Aqrar sahənin bu xüsusiyyətlərini öyrənmədən, təhlil etmədən, onu dərindən dərk etmədən bu sahənin idarəedilməsi, burada struktur siyasətinin aparılması, istehsalı tənzimləmək mümkün deyil. Buna görə də dövlət tərəfindən iqtisadiyyatın aqrar sahəsinin xüsusiyyətlərini nəzərə alan

xüsusi siyasət yeridilir. Məlumdur ki, kənd təsərrüfatının ən mühüm xüsusiyyəti ondan ibarətdir ki, o, ölkə əhalisini ərzaqla, sənayeni isə xammalla təmin edir. Kənd təsərrüfatının digər mühüm xüsusiyyəti iş dövrü ilə istehsal dövrünün eyni vaxta düşməməsidir. Kənd təsərrüfatında kapital dövriyyəsinin çox aşağı sürətli olması da bununla bağlıdır. Kənd təsərrüfatının ən mühüm xüsusiyyətlərindən biri də, burada torpağın əsas istehsal vasitəsi kimi çıxış etməsidir.

Aqrar sahənin bəhs etdiyimiz spesifik xüsusiyyətlərindən biri də aqrar sahənin xeyli dərəcədə təbii amillərdən asılı olmasıdır. Bu xüsuslar aqrar sahənin ərazi və sahəvi idarəedilməsində önəmli rola malikdir. Belə ki, pambıq istehsalı respublikanın başqa regionları ilə müqayisədə Aran iqtisadi rayonunda daha yüksək səmərə verir. Meyvə-tərəvəz məhsulları Quba - Xaçmaz, Lənkəran - Astara, Şəki - Zaqatala, Gəncə - Qazax zonalarının təsərrüfatlarında daha münasibdir. Digər mühüm spesifik xüsusiyyət isə, aqrar sahənin mövsümi xarakter daşımasıdır. İslahatlarda və struktur siyasətində bu mövsümiliyi aradan qaldırmaq və ilin bütün fəsillərində kənd təsərrüfatı əməyindən nisbətən bərabər istifadə etməyə çalışaraq, bu yöndə inamlı addımlar atılmışdır. Ancaq bütün bunlar məsələni tam həll etmir, bu məsələ indi də çox böyük iqtisadi və sosioloji problem olaraq qalır.

Təcrübədən aydın olur ki, Azərbaycanın iqtisadi regionları (rayonları) öz potensialına, təbii sərvətlərinin miqyasına və növünə, məşğulluq səviyyəsinə, həmçinin aqrar sahənin inkişafı baxımından bir - birindən fərqlənir. Bunun bir çox səbəbləri vardır, başlıcası odur ki, məhsuldar qüvvələr regionlar arasında qeyri - bərabər paylanmışdır. Belə ki, iqtisadiyyatın və infrastruktur sahələrinin əsasən Bakı şəhərində cəmlənməsi, onun rayonlara nisbətən daha sürətlə inkişaf etməsi, rayonlarda sosial - iqtisadi vəziyyətin ağırlaşması və nəticə etibarilə, əhalinin regionlardan sürətlə Bakıya axınına səbəb olmuşdur.

Onu da bildirmək lazımdır ki, regionların və aqrar sahənin kompleks inkişafına yönəldilmiş təcrübəvi əhəmiyyətə malik olan proqram sənədi kimi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 11 fevral 2004-cü ildə və 14 aprel 2009-cu ildə imzaladığı "Azərbaycan Respublikası Regionların sosial - iqtisadi inkişafı Proqramı (2004 - 2008 və 2009 - 2013-cü illər)" nı hesab etmək olar. Çünki bu proqramlarda, ölkədə aparılan regional - iqtisadi siyasətə

xüsusi diqqət yetirilmiş, regional inkişafda kəskin fərqlərin aradan götürülməsi üçün təcili tədbirlər planının işlənib hazırlanması kimi vacib məqsədlər qarşıya qoyulmuşdur.

Dissertasiyanın "**Azərbaycan Respublikasında Aqrar istehsalın mövcud idarəetmə quruluşunun müasir durumu**" adlanan ikinci fəslində regionların sosial-iqtisadi inkişafının müasir vəziyyəti, Azərbaycan Respublikasında regionların sosial - iqtisadi inkişafında dövlət tənzimləmə siyasətinin zəruriliyi və əsas istiqamətləri, istehsalın ərazi və sahəvi idarəedilməsinin regionların sosial - iqtisadi inkişafına təsiri göstərilmişdir.

Son illər Azərbaycan Respublikasında demokratik cəmiyyət quruculuğunun inkişafı, dünya iqtisadi sisteminə inteqrasiyanın güclənməsinin nəticəsidir ki, ölkəmizdə əsaslandırılmış regional siyasət aparılır. Bu baxımdan iqtisadiyyatın ayrı - ayrı sahələrində olduğu kimi aqrar sahədə də dövlət tənzimlənməsi və idarə olunması məsələləri həm nəzəri - metodoloji, həm də praktiki baxımdan xüsusi aktuallıq kəsb etməyə başlamışdır.

Məlumdur ki, bu məqsədyönlü tədbirlərdə əsas məqsəd uğurlu iqtisadi siyasət nəticəsində qazanılmış nailiyyətləri daha da artırmaq, ölkənin ayrı - ayrı regionları arasında yaranmış sosial - iqtisadi fərqləri aradan qaldırmaq, regionlarda mövcud potensialdan səmərəli istifadə etməklə iqtisadi sahələrin dayanıqlı inkişafını təmin etmək, yeni iş yerlərinin açılması və digər tədbirlərin həyata keçirilməsini təmin etməkdir.

Bu məqsədlə Dövlət Proqramında qəbul edilmiş rayonlaşma təsnifatı ölkənin ayrı - ayrı regionlarının mövcud potensialından daha səmərəli istifadə etməklə, müxtəlif ərazilərdə iqtisadiyyatın sahələr üzrə ixtisaslaşma dərəcəsinin və onun quruluşunun daha təkmil şəkildə inkişafını nəzərdə tutur.

"Azərbaycan Respublikası regionlarının 2009 – 2013 - cü illərdə sosial - iqtisadi inkişafı Dövlət Proqramı" nın əsas məqsədi ölkədə qeyri - neft sektorunun inkişafının sürətləndirilməsinə, iqtisadiyyatın diversifikasiyasına, tarazlı regional və davamlı sosial - iqtisadi inkişafa, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına nail olmaqdır.

Aqrar sahənin ərazi idarəetmə sistemini təkmilləşdirmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20 sentyabr 2002 - ci il tarixli 146 saylı qərarı ilə Ərazi Kənd Təsərrüfatı İdarələri yaradılmışdır. Ərazi Kənd Təsərrüfatı İdarələri regional xüsusiyyətləri nəzərə almaqla Ağcabədi, Quba, Lənkəran, Salyan, Samux, Tovuz, Şamaxı, Şəki, Ucar rayonlarında yerləşir. (sxem 1).

Ərazi Kənd Təsərrüfatı İdarəsi Respublika Kənd Təsərrüfatı Nazirliyinin Struktur Bölməsi olmaqla, müəyyən edilmiş ərazi üzrə kənd təsərrüfatı sahəsində səlahiyyətləri daxilində aqrar siyasətini formalaşdıran və həyata keçirən Kənd Təsərrüfatı Nazirliyinin müvafiq ərazi üzrə icra orqanıdır. Ərazi Kənd Təsərrüfatı İdarəsi öz fəaliyyətində Azərbaycan Respublikası Konstitusiyasını, Azərbaycan

Respublikasının sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Respublika Kənd Təsərrüfatı Nazirliyinin əmr və sərəncamlarını, digər normativ - hüquqi aktları rəhbər tutur.




Sxem 1. Ərazi Kənd Təsərrüfatı İdarəsinin təşkilatı və idarəetmə quruluşu

Araşdırmalarımızdan belə qənaətə gəlirik ki, istər reionların inkişafı ilə əlaqədar Dövlət Proqramı, istər ərazilərdə yeni idarəetmə orqanlarının yaradılması, istərsə də bunlara dövlət müdaxiləsinin təkmilləşdirilməsi bizə mövcud aqrar islahatlardan xəbər verir. Aqrar sahənin bazar münasibətlərinə keçirilməsi istiqaməti əsas götürülməklə kənd təsərrüfatında islahatların aparılması, istehsalın strukturunun təkmilləşdirilməsi, mülkiyyətin və təsərrüfatçılığın müxtəlif formalarının inkişaf etdirilməsi, idarəetmədə iqtisadi üsullara üstünlük verilməsi, aqrar sahəyə investitsiya qoyuluşunun artırılması istiqamətində ciddi addımlar atılmışdır.

"Aqrar islahatın əsasları haqqında" dövlət qanununda göstərilir ki, "islahatın məqsədi aqrar sahəni böhrandan çıxarmaq, iqtisadiyyatı sabitləşdirmək, əhalinin sosial - iqtisadi vəziyyətini yaxşılaşdırmaqdır. İslahatın vəzifələri torpaq və əmlak üzərində yeni mülkiyyət münasibətlərinin formalaşdırılmasından, bazar iqtisadiyyatına uyğun istehsal və sosial infrastruktur sahələrində müxtəlif növlü təsərrüfatların yaradılması və inkişafı ilə istehsal münasibətlərinin dəyişdirilməsindən ibarətdir".

Özəl qurumlar, xüsusilə fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatları kənd təsərrüfatında əsas istehsalçı müəssisələrdir. Onlar islahatların gedişinin sürətləndirilməsinə, səmərəli struktur dəyişikliklərinin aparılmasına əhəmiyyətli dərəcədə təsir göstərirlər. Əldə etdiyimiz məlumatlardan aydın olur ki, hazırda Azərbaycanda kənd təsərrüfatı məhsullarının 99,0% - ə qədəri özəl bölmədə istehsal olunur. Odur ki, əsas bazar strukturu kimi bu özəl təsərrüfatçılıq formalarının inkişafına böyük əhəmiyyət verilməlidir.

Məlumdur ki, iqtisadi mahiyyətinə görə aqrar sahə əsas və əlavə sahələrə bölünür. Əsas sahələr də öz növbəsində bitkiçilik və heyvandarlıq olmaq üzərə iki qrupa ayrılır. Onların nisbəti isə aqrar sahənin sahə strukturunu xarakterizə edir.

Bitkiçilik sahəsində baş verən proseslər aqrar sahədə gedən islahatların müsbət nəticələrindən xəbər verir. 2012 - ci ilin məhsulu üçün 1702,8 min hektar sahədə əkin aparılmışdır. Onun 1124,1 min hektarını, yəni 66% payızlıq və yazlıq dənli və dənli paxlalılar, 300,3 min hektarını, yəni 18% digər yazlıq bitkilər və 278,4 min hektarını, yəni 16% keçmiş illərdən qalan çoxillik otlar təşkil etmişdir.

**Cədvəl 1.**

Bitkiçilik məhsulunun istehsalı

| | 2002 | 2004 | 2007 | 2010 | 2011 | 2012 | 2012-ci ilin 2002-ci ilə nisbəti |
|---|---|---|---|---|---|---|---|
| cəmi, min.ton | | | | | | | |
| Taxıl | 1509 | 2077 | 2032 | 1965 | 2446 | 2798 | 85% |
| Pambıq | 92 | 197 | 130 | 100 | 55 | 55.4 | -40% |
| Şəkər | 47 | 37 | 167 | 142 | 191 | 175.7 | 274% |
| Kartof | 469 | 1083 | 999 | 1037 | 1077 | 1153 | 146% |
| Tərəvəz | 781 | 1127 | 1186 | 1227 | 1228 | 1215 | 56% |
| Meyvə və giləmeyvə | 453 | 600 | 636 | 650 | 698 | 809.8 | 79% |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Görüldüyü kimi kənd təsərrüfatı məhsullarının ümumi yığım sahəsinin məhsuldarlığı illər üzrə artmışdır. 2012-ci ildə 2002-ci ilə nisbətən taxıl sahəsində 85% artım müşahidə olunmuşdur. Bu rəqəm, şəkərdə 274%, kartofda 146%, meyvə və giləmeyvədə 79%, tərəvəzdə isə 56% təşkil etmişdir.(cədvəl 1).

Sahibkarlara göstərilən hərtərəfli dövlət dəstəyinin (güzəştli kreditlərin verilməsi, emal müəssisələri və məhsul saxlama anbarlarının şəbəkələrinin genişləndirilməsi, kənd təsərrüfatı texnika ilə təminatının yaxşılaşdırılması, cins mal-qaranın lizinqə verilməsi və s.) kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasına öz müsbət təsirini göstərmişdir.

Kənd təsərrüfatının əsas sahəsi olan heyvandarlıq sahəsində mal-qaranın baş sayı və heyvandarlıq məhsulları istehsalı dinamik olaraq artır. Son illər sürünün cins tərkibinin yaxşılaşdırılması istiqamətində görülmüş müəyyən işlər mal-qaranın baş sayının və heyvandarlıq məhsullarının artmasına öz müsbət təsirini göstərmişdir.

2012-ci ildə ölkə üzrə 2703.9 min baş iri buynuzlu mal-qara, o cümlədən 1302.3 min baş inək və camış, 8651.2 min baş qoyun və keçi mövcud olmuşdur. 2011-ci illə müqayisədə iribuynuzlu mal-qaranın sayı 22 min baş (0.8 faiz), o cümlədən inək və camışların sayı 14.2 min

baş (1.1 faiz) , qoyun və keçilərin sayı isə 91.9 min baş (1.1 faiz) artmışdır

Cədvəl 2.

Heyvandarlıq məhsulunun istehsalı

| | 2002 | 2004 | 2007 | 2010 | 2011 | 2012 | 2012-ci ilin 2002-ci ilə nisbəti |
|---|---|---|---|---|---|---|---|
| cəmi, min.ton | | | | | | | |
| Ət | 109 | 150 | 156 | 171 | 176 | 478.8 | 339% |
| Süd | 1031 | 1252 | 1300 | 1341 | 1382 | 1719.6 | 67% |
| Yumurta (milyon ədəd) | 543 | 875 | 761 | 954 | 1101 | 1226.7 | 126% |
| Yun | 10.6 | 13.3 | 13.8 | 14.7 | 15.3 | 16.5 | 56% |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Heyvandarlıq sahəsində, ölkədə 2012-ci ildə 2002-ci ilə nisbətən ət istehsalı 339% artmışdır. Südün istehsalında bu göstərici 67%, yumurta istehsalında 126%, yun istehsalında isə təşkil etmişdir.

Bununla yanaşı, 2013-cü il Fevralın 12-də keçirilmiş regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfransda prezident İlham Əliyev ölkə iqtisadiyyatının bütün sahələri ilə yanaşı aqrar sektorun bundan sonrakı dövrdə inkişafı ilə bağlı bir sıra məsələlərə də toxunmuşdur.

Dissertasiyanın "**Aqrar istehsalın ərazi və sahəvi idarəetmə quruluşunun təkmilləşdirilməsi istiqamətləri**" adlı üçüncü fəslində Respublika regionlarının təbii, istehsal və sosial - iqtisadi amilləri kompleks qiymətləndirilmiş və onların perspektiv ərazi və sahəvi idarə edilməsinin inkişafının təmin olunması istiqamətləri tədqiq olunmuşdur.

Təcrübə göstərir ki, regionlarda əksər hallarda aqrar bölmədə sahibkarlıq fəaliyyətinin inkişafı ləngiyir, rəsmi dövlət qeydiyyatından keçmiş çoxsaylı kiçik və müştərək müəssisələr bilavasitə məhsul istehsal etmir, əksərən kommersiya fəaliyyəti ilə məşğul olurlar.

İqtisadiyyatı azad rəqabət bazarının tələbatlarına və əhalinin ehtiyaclarına çevik şəkildə uyğunlaşdırmaq üçün sağlam sahibkarlıq mühitinin yaradılması, adamların sahibkarlıq ruhunda tərbiyə edilməsi və sahibkarlıq fəaliyyətinin öncül inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi olduqca vacibdir. Bu zaman aqrar bölmədə kiçik və orta sahibkarlığın inkişafına üstünlük verilməlidir və burada inhisarçılığa yol vermək olmaz.

Təcrübə göstərir ki, kiçik müəssisələr və istehsalat sahələri az istehsal vasitələrinə, işçi qüvvəsinə və məhsula malik olur, əkinçilik və heyvandarlığın sənaye təməli əsasında inkişafını ləngidir, istehsal xərclərinin faydalığını aşağı salır, elmi - texniki tərəqqinin nailiyyətlərinin tətbiqinə əlverişli imkan yaratmağa maneçilik törədir.

Aqrar sahənin təmərküzləşməsi əsasında formalaşmış iri kənd təsərrüfatı müəssisələri kiçik təsərrüfatlarla müqayisədə bütün münasibətlərdə şərtsiz üstünlüklərə malik olduğunu sübut etmiş və özünü təsdiqləmişdir. Bu üstünlük özünü həm də sahədəki birgə müəssisələrin, kooperativlərin, səhmdar cəmiyyətlərinin kəmiyyət və keyfiyyət göstəricilərində əksini tapır. İri istehsalat sahələrində, eyni zamanda elmi - texniki tərəqqinin nailiyyətlərinin əlverişli tətbiqi mümkün olur, kooperasiya və əmək bölgüsünün imkanlarından faydalanmaq şəraiti formalaşır, müsbət kəmiyyət və keyfiyyət dəyişiklikləri başverir. Bundan başqa, təmərküzləşmə zəminində əmək məhsuldarlığı artır, istehsalın ictimailəşdirilməsinin səviyyəsi yüksəlir, vəsaitə qənaət olunur, ixtisaslaşma güclənir, mənfəət və rentabellik çoxalır. Bu zaman kredit almaq imkanları təminatlı səciyyə daşıyır, digər müəssisə və təşkilatlarla etibarlı əlaqə və müqavilələr formalaşır.

Lakin kənd təsərrüfatının və bütünlükdə aqrar istehsalının təmərküzləşməsi əsaslı düşünülməli, sahənin spesifik xüsusiyyətləri nəzərə alınmalı, tələskənliyə yol verilməməlidir. Ayrı - ayrı ölkələrin təcrübəsinə istinad edilməli, prosesin ardıcıllığı xüsusi diqqət obyektinə çevrilməli, təmərküzləşmənin reallaşdırılmasının mənbə, imkan və yollarının hər birinin faydalığı əsaslandırılmalıdır.

Regionların idarə edilməsində sahəvi idarəetmə də unudulmamalıdır. Çünki bu iki sahə bir – biri ilə yaxından əlaqəlidir. Kənd təsərrüfatının inkişafında sahə priorotetlərinin müəyyən edilməsi baxımından qeyd edilən məqsədlərin hər birinin strukturuna nəzər

salınması gözəl olardı. Bir sıra əsas kənd təsərrüfatı məhsulları ilə özünütəminetmə səviyyəsi ərzaq təhlükəsizliyinə uyğun gəlmir. Taxılın burada yerini xüsusi olaraq vurğulaya bilərik. Azərbaycanın tarixən qərarlaşmış ərzaq istehlakı modelində çörək və çörək məhsulları nisbətən daha yüksək rola malikdir. Məhz bu səbəbdən də kənd təsərrüfatının sahələri arasında taxılçılığın inkişafı ərzaq təhlükəsizliyi baxımından prioritet mövzudur, xüsusi əhəmiyyətə malikdir.

Məsələyə yuxarıdakı aspektdən yanaşsaq, ərzaq təhlükəsizliyinin həllinə səbəb olacaq digər önəmli sahə heyvandarlıqdır. Ölkəmizin aqrar sahəsində iqtisadi islahatlar keçirildiyi bir vaxtda əhalini qiymətli ərzaq məhsulları - ət, yumurta, süd və başqaları ilə təmin edən heyvandarlığın yerli iqlim, təbii və iqtisadi şəraitdən asılı olaraq düşünülüb inkişaf etdirilməsi zərurəti meydana çıxır. Heyvandarlıq məhsullarının adambaşına düşən istehlak həcmi fizioloji tələbat normaları ilə müqayisədə bitki mənşəli ərzaq məhsulları üzrə müvafiq göstəricilərdən xeyli aşağıdır.

Heyvandarlığın inkişafında əsas yerlərdən birini yem bazasının möhkəmləndirilməsi tutur. Hal – hazırda ölkədə yem bazası əsasən təbii biçənəklərdən, suvarma və dəmyə əkinçiliyindən, heyvan mənşəli yemlərdən, jımıx, şeluxa, qarışıq yemlər və s.dən təşkil olunur. Yem istehsalının ilkin mənbəyi əkmə yem sahələrinin genişləndirilməsi və əkin sahələrinin quruluşunun yaxşılaşdırılması əsasən yonca, xaşa, raps, soya, qarğıdalı, günəbaxan, noxud və s. yem bitkiləri, həmçinin taxıl və başqa bitkilər hesabına aparılması məqsədəuyğundur.

Aqrar sahənin ərazi və sahəvi idarəetmə sisteminin təşkili, aqrar sahədə idarəetmə strukturunun təkmilləşdirilməsi, bu sahədə düzgün aqrar siyasətin qurulması və bunların paralelində aqrar sahənin inkişaf etdirilməsində yuxarıda sadalananların danılmaz rolunu qeyd etmək yerinə düşərdi. Aqrar kompleksin yeni idarəetmə strukturu formalaşarkən, dünya təcrübəsi və dünyada qəbul olunmuş standartlara riayət olunmalıdır. Təbii ki, aqrar sektorda təklif olunan yeni idarəetmə strukturları mərhələ - mərhələ həyata keçirilməli, idarəetmənin getdikcə daha da demokratikləşdirilməsi, özünü idarə etmə metodlarının geniş tətbiqi əsasında təşkil edilməlidir.

Tədqiqat zamanı əldə olunan nəticə və təkliflərdən bəziləri;

- İstehsalın ərazi və sahəvi idarəedilməsi sisteminin mövcud iqtisadi rayonların aqrar xüsusuyyətlərinə görə qurulması və bu zaman ənənəvi amillərlə yanaşı, müasir innovasiyaların son nailiyyətlərinin tətbiq edilməsinin zəruriliyi göstərilir.

- Respublikanın regionları arasında kənd təsərrüfatı məhsulları istehsalı, emalı və xidməti işləri bazara uyğun tənzimlənməlidir. Çünki, müasir dövrdə istehsalın çevik qurulması tələbləri sırasına torpağın mükəmməl aqrotexniki hazırlığından tutmuş, məhsuldar əkin materiallarından istifadə, əldə edilmiş məhsula aqromarketinq prinsiplərindən yanaşmalar daxildir, eləcədə istehsalın xüsusiyyətlərinin bazar informasiyalarına uyğunlaşdırılması qarşıda duran məsələlərdən biridir.

- İstehsalda məqsədli kompleks proqramlar yerinə yetirməklə yanaşı, müasir intensiv texnologiyalardan da istifadə etmək əhəmiyyətli xüsuslardandır. Bu texnologiyalar isə ucuz xammal mənbələrindən istifadə, insan əməyinin minimallaşdırılması, insan gigiyenası və ərzaq təhlükəsizliyinin yerinə yetirilməsi üçün çox vacibdir.

-Kənd təsərrüfatı istehsalının inkişafı onun düzgün ixtisaslaşdırılması və yerləşdirilməsindən də asılıdır. Kənd təsərrüfatnın yerləşdirilməsi və ixtisaslaşdırılması ölkəmizin ayrı - ayrı regionları üzrə həyata keçirilir; bu halda dövlət ehtiyacları və təbii iqtisadi şərait nəzərə alınır.

- Yaradılmış fərdi kəndli təsərrüfatlarının, onların birliyinin istehsal strukturu müəyyən edilərkən əsas sahə ilə yanaşı əlavə sahələrin inkişafı və təsərrüfatdaxili ehtiyacların ödənilməsi məsələləri də nəzərə alınmalıdır. Məsələn, bir yerdə taxılçılıq əsas sahədirsə, bununla yanaşı əlavə sahələr kimi pambıqçılıq, heyvandarlıq və ya yemçilik də inkişaf etdirilə bilər. Nəticədə, bu addım əkin sturukturunda növbəlilik prinsipini meydana çıxarar ki, bu da aqrar potensialın yüksəldilməsində mühüm addımdır.

- Bu gün kənd təsərrüfatında bir çox sahələr arasında bir sıra uyğunsuzluqlar mövcuddur. Xüsusilə, kənd təsərrüfatı ilə onun xammalını emal edən, məhsulun tədarükü, daşınması, saxlanması, qablaşdırılması ilə məşğul olan sahələr arasında bu faktorlar özünü daha qabarıq şəkildə büruzə verir. Aparılan struktur siyasəti elə

qurulmalıdır ki, bu sahələr arasında mövcud uyğunsuzluqlar aradan qaldırılsın.

- Aqrar sahədə mövcud olan problemləri sadalayarkən, təbii ki, ölkədə ətraf mühitə mənfi təsir edən amillərdən, onların qarşısının alınması və ekoloji vəziyyətin yaxşılaşdırılmasından bəhs etməmək olmaz. Bu məsələnin həlli üçün bir sıra vacib tədbirlər görülməli, o cümlədən Xəzər dənizinin sahilboyu zolağında, Abşeron yarımadasında və ölkənin digər regionlarında su hövzələrinin, havanın, torpağın təbii keyfiyyətinin bərpa olunması üçün tullantı suları təmizlənməli, çirklənmiş torpaqlar rekultivasiya edilməli, geniş sahələrdə meşələr və yaşıllıqlar salınmalı, abadlaşdırma işləri aparılmalı və digər zəruri tədbirlər həyata keçirilməlidir.

- İqtisadi rayonlarda formalaşmış və perspektivdə gözlənilən istehsal sahələrinin investisiya təminatının gücləndirilməsi həyata keçirilməlidir;
- Mövcud müəssisələrin maddi və texnoloji bazasının yeniləşdirilməsinə investisiya qoyuluşunun təşviqi məqsədilə yaradılmış Azərbaycan İnvestisiya Şirkəti, Sahibkarlığa Kömək Milli Fondu, İxracın və İnvestisiyaların Təşfiqi Fondu, Aqrolizinq ASC, Aqrarsənayetikinti ASC kimi qurumların fəaliyyət istiqamətləri ümumi prinsiplərdən koordinasiya olunmalı, onların maliyyə-texniki imkanları yerlərdə istehsal sahələrinin gücləndirilməsinə cəlb edilməlidir;
- Yerlərdəki istehsal sahələrinin qurulması, fəaliyyəti və dayanıqlığı özəl sektorla yanaşı dövlət qurumlarının da dəstəyi ilə həyata keçirilməlidir. Bu zaman özəl sektorun iştirakı daha çox təşkilati xarakter daşıyırsa, dövlət dəstəyi inzibati, qanunvericilik bazası və digər stimullaşdırıcı addımlardan ibarət olmalıdır;
- Aqrar sektorda yeni texnologiyaların tətbiqinə və investisiya qoyuluşlarının həyata keçirilməsinə qeyri-neft sektorunda fəaliyyət göstərən iri şirkətinlərin cəlb edilməsi;
- Yerli aqrar istehsal sahələrinin beynəlxalq bazarlarda iştirakının təmin edilməsi və Avropa keyfiyyət standartlarına inteqrasiya olunması;
- İqtisadiyyat sahəsində bölgədə yerləşən müəssisə və təşkilatlara müxtəlif layihələrin hazırlanmasında, proqnozlaşdırmada, xarici

iqtisadi əlaqələrin yaradılmasında və sərmayə qoyuluşu kimi maaliyyə işlərinin təşkilində məqsədyönlü köməklik göstərmək.

**Dissertasiyanın əsas məzmunu aşağıdakı işlərdə öz əksini tapmışdır:**


1. İsmayılov V.A. "Aqrar sahədə aparılan islahatlarda inkişaf etmiş xarici ölkələrin təcrübələrindən istifadənin məqsədəuyğunluğu", 'Azərbaycan Aqrar Elmi'; 1 - 2; 2010, s.148-150.
2. İsmayılov V.A. "Aqrar sahənin idarəedilməsində dövlət siyasəti", 'Azərbaycan milli elmlər akademiyası İqtisadiyyat İnstitutu Elmi Əsərlər', 2 ; 2010, s.241-245.
3. İsmayılov V.A. "Aqrar sahənin inkişafı ve həyata keçirilən aqrar islahatların təhlili", 'Azərbaycan elmi tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun Elmi Əsərlər'; 1; 2010, s.204-208.
4. İsmayılov V.A. "Aqrar sahənin idarə edilməsində regional strukturun əhəmiyyəti", 'Gənc tədqiqatçıların ümumrespublika elmi konferansı'; Qafqaz Universiteti; 06-07 may, 2010-cu il, s.147-148.
5. İsmayılov V.A. "Aqrar sahənin idarə edilmesində mövcud problemlər və onların həllində düzgün struktur siyasətinin tətbiq edilməsi", 'Azərbaycan milli elmlər akademiyası İqtisadiyyat İnstitutu Elmi Əsərlər Jurnalı', 2011, səh:275-279.
6. İsmayılov V.A. "Kənd təsərrüfatında struktur siyasətinin rolu və mühüm spesifik xüsusiyyətləri", 'Journal of Qafqaz';N 31, 2011.,səh:79-84.
7. İsmayılov V.A. " Development of control mechanism and existing problem solving methods in a grarian field", "Qlobalnıy Nauçnıy Potensial ", Sankt-Peterburq N-2(11),2012, səh:91-93.

**Вугар Агамуса оглы Исмаилов**

**Вопросы оптимизации структуры регионального управления производства (на основе материалов аграрной сферы)**

## РЕЗЮМЕ


Диссертационная работа состоит из введения, трех глав, выводов и списка использованной литературы.

**Во введении** обоснована актуальность темы, определены цель и задачи исследования. Здесь также показаны научная новизна и практическая значимость, апробация результатов исследования.

**В первой главе** рассматриваются сущность и научно-методологические основы регионального управления аграрной сферы, а также формирование регионального рынка, и факторы, влияющие на развитие.

**Во второй главе** исследуется современное состояние, степень развитиясельского хозяйства в Азербайджане.

**В третьей главе** рассматриваются пути развития и оптимизации регионального управления аграрной сферы Азербайджана.

**В заключительной** части работы даны выводы и предложения, полученные в результате проведенного исследования

**Vugar Agamusa İsmayılov**

**The optimization of the regional productionmanagement structure (based on the materials of the agrarian sector)**

## SUMMARY

The thesis consists of the preface, three chapters and conclusion and used literature list.

**In the preface** the urgency of the topic is grounded, researching level is defined, the aim and duties, theoretical – methodological bases, information base of investigation are defined, and its scientific innovation and practical importance are shown.

**The first chapter** deals with the essence of scientific and methodological basis for regional management of the agrarian sector, and the formation of the regional market and the factors influencing the development.

**The second chapter** examines the current state, the extent of agricultural development in Azerbaijan.

**The third chapter** discusses ways of development and optimization of regional management of the agrarian sector of Azerbaijan.

**In the final part** of the work conclusions and suggestions gathered as a result of the study are given.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЭКОНОМИКИ**

*На правах рукописи*

**ВУГАР АГАМУСА ОГЛЫ ИСМАИЛОВ**

# ВОПРОСЫ ОПТИМИЗАЦИИ СТРУКТУРЫ РЕГИОНАЛЬНОГО УПРАВЛЕНИЯ ПРОИЗВОДСТВА
**(на основе материалов аграрной сферы)**

**Специальность: 5312.01 – Отраслевая экономика**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание научной степени**
**доктора философии по экономике**

**БАКУ – 2013**